Ədəbiyyat qəzeti

# Limb və alidada

## Hekayə



Səfər ALIŞARLI

Ordudan təzə qayıtmış adama hərbi qadağalardan kənarda hər şey asan görünür. İki illik təpik döyməkdən, gündə bir stəkan bulanıq kisel içməkdən bezmiş və sanki son nəfəsində oraları tərk edərək azadlığa qovuşmuş cavan adama elə gəlir ki, gen dünyanın bütün qapıları taybatay açılıb onu gözləyir. Halbuki gözləyən yalnız doğma evin qapısıdır, başqa qapılar açılar da, açılmaz da... İlqar o qapılardan birinin qarşısına şəhər camaatını özünə tamaşa etmək üçün bağa-bağçaya çıxarmış işıqlı, güllü-çiçəkli may gününün içindən keçib gəlmişdi. Qəsdən səyəllənə-səyəllənə gəlmişdi ki, nizami sıra yerişinin mülki həyatda qara qəpiyə dəyməz salak vərdişlərini canından bir az da çıxarsın və bununla özünün yeni mühitə alışmasını tezləşdirsin. Bəlkə də günəşli may hənirində tanış şəhərin köhnə küçələrindən, bağ-bağçalarından kefi istəyən kimi keçməklə bu nailiyyətini xeyli artırmışdı, amma azı üç metr hündürlüyündə ağappaq qapının bayaqdan bəri bircə dəfə də açılmaması nəsə bəri başdan ləzzət eləmirdi. Üç yerlik sərt kinoteatr skamyasında tək oturmuş İlqar sanki seansa vaxtından çox tez gəlmişdi və darısqal dəhlizdə kimsənin görünməməsi filmin ümumiyyətlə, nümayiş olunacağına onun azadlıq havasından hələ doymamış gənc ürəyində sızıltılı şübhələr oyadırdı.

Qapının arxasında oturmuş şöbə müdiri Qurbanovla əsgərlikdən öncə İlqar başqa idarədə işləmişdi, indi sorağına gəlmişdi ki, mümkün olsa, yenidən bir yerdə çalışsın. İlqarın ürəyində Qurbanova qarşı köhnə tanış rəğbəti onların arasındakı uca yaş səddini keçə bilməsə də, hərdən bu səddin dəlmə-deşiyindən boylanmaqdan çəkinmirdi. Əslində isə o, Qurbanov üçün darıxmışdı, çünki müstəqil həyata qədəm qoymuş İlqarın bu şəhərdə xətti-xalı və hüsnü-camalı üçün darıxmağa başqa adamı yox idi.

İlk dəfə ekspedisiyada görüşəndə Qurbanov onu icraçıların, fəhlələrin, sürücülərin və təcrübə keçməyə gəlmiş tələbələrin arasından sanki dimdiyində götürüb kənara qoydu və nazik dodaqlı yekə ağzı boyu ehtiyatla gülümsündü. Neçə günüydü onların üzünə kimsə gülümsünmürdü, əksinə, özünü böyük və kiçik rəis sayan hər kəs onlara zəhmli görünməyə çalışırdı. Və qısa tanışlıqdan sonra Qurbanov konkret onun doğulduğu yerlərin kişilərinin çox da uzaq olmayan keçmişi haqda kinayəli eyhamla belə dedi: "Qarayaylağın köhnə kişiləri bilirsən nə deyirdilər? Adam içinə çıxan kimi lovğa-lovğa belə öyünürdülər: dünən getdim bazardan bir girvənkə erkək əti aldım apardım, külfət doyunca yedi, bığımın da yağı hələ getmiyib!" Əlini olmayan bığlarına ləzzətlə çəkən Qurbanov ona yarıpıçıltı tonallığında mühəndis dəqiqliyi ilə izah elədi ki, bir girvənkə indinin təxminən dörd yüz qramıdır. Qurbanov əksər qarayaylaqlılar kimi ucaboy, qara adam idi, amma ağappaq dişləri və rusca gözəl danışmağı onun qarayaylaqlılara bənzərliyini azaldırdı ki, artırmırdı. Elə oradaca məlum oldu ki, ekspedisiya rəisinin müavinidir, Moskvada institut bitirib və buradakı rusların çoxu kimi o da Uzaq Sibir meşələrində icraçı işləyib. Miqyası təsəvvür eləyəndə İlqarın qarayaylaqlılar haqqında azalanı yenə çoxalana doğru yüksəldi.

Ekspedisiya Muğana təzə gəlmişdi, vəzifəsi əkinə yararsız şoran çöllərin xəritəsini çəkmək idi. Amma baş məskunlaşma qərargahı olaraq dəmiryolu stansiyasının yaxınlığındakı betonçular qəsəbəsinin eynitipli ikimərtəbəli evlərinə yerləşdirilmişdi və Muğanın əkinə yararsız şoran çölləri hələ buradan görünmürdü. Hər biri iki tələbə almış icraçılar çöllə döyüşə çıxmaq üçün hazırlıq işləri ilə məşğul idi. Onların bəziləri birbaşa xəritəsi çəkiləcək sahələrə, ya da oralara yaxın kəndlərə köçməyə hazırlaşırdı ki, hər gün uzaq yolu toz-torpağın içində gedib-gəlməsinlər. Qurbanov yenə gəlib onu balkonda gitara dınqıltısına oxuyan tələbələrin içindən dimdiyində götürdü və dedi ki, çölə getmək lazımdır.

- Kimin briqadasına veriblər səni? - Maşına oturandan sonra Qurbanov ondan soruşdu.

- Smirnovun, - o, ağızucu cavab verdi.

- Niyə mızıldanırsan? - Qurbanov kabinənin darısqallığında dönüb onun üzünə baxdı. - Xoşuna gəlmir Smirnov?

- Yox, niyə ki! - o dedi və ikigünlük tanışlıqda Smirnovun ona münasibətində qüsur görmədiyini özü üçün bir daha müəyyənləşdirdi.

- Necə oldu bu sənəti seçməyin? - Qurbanov bir azdan sanki bekarçılıq üzündən soruşdu. Rəis müavini nəsə indi ona ilk tanışlıqdakından sərt görünürdü.

- Bilmirəm, "təsadüf" də demək olar, - o yenə mızıldandı, təfərrüatı danışmağa nədənsə çəkindi.

Qurbanov ilk tanışlıqdakı əhvalda olsaydı, bəlkə də nəyin badına getdiyini ona danışardı. Yoxsa üç kişinin susa-susa yol getməsi özlüyündə yaxşı əlamət deyil. Əlbəttə, danışa bilərdi. Deyərdi ki, texnikumda sənədləri qəbul edən qız başqa ixtisaslara normanın dolduğunu bildirəndən sonra çöllərdə, dağlarda xəritə çəkməyi necə romantikcəsinə təsvir etdisə, o razılaşdı. Bu razılığa qız məmnunca gülümsündü, ağappaq, incə barmaqları arasında oynatdığı qələmlə iri hərfləri muncuq kimi düzərək qovluğun üstünə "Topoqrafiya" sözünü yazdı və sənəd qəbulunun son günü olduğu üçün əsl qırğın yaşanan zalda butulkadan süzdüyü yarım stəkan mineral suyu sanki təşəkkür əlaməti kimi ona verdi. O isə özünə bilavasitə aid edilən, indiyədək eşitmədiyi yeni sözün hüsnündən doymadan bu qızın xətti ilə yazılmış bütöv bir vərəq məktubu oxumağın xoşbəxtliyini təsəvvür eləməyə çalışdı və məhdud fantaziyasının iyul bürküsündə suyu harasına içdiyini də bilmədi. Bütün yol boyu ürəyinə dolmuş şübhələrlə didişə-didişə özünü qınadı ki, bir stəkan suyun badına getdin, İlqar! İmtahanları verəndə də gözləri qapıda qalmışdı ki, indicə içəri girib onun qiymətini vərəqə məhz həmin gözəl xətlə o yazacaq, çünki ikinci elə gözəl xətt bu şəhərdə çətin ki, tapılardı. Amma gəlmədi, nə birinci imtahana gəldi, nə də ikinciyə... Elə bil yer üzünə onun sənədlərini qəbul etmək üçün xüsusi göndərilmiş bir mələkdi, öz işini asanlıqla yerinə yetirəndən sonra yenə göylərə çəkilib qeyb oldu, bir daha görünmədi. Aldığı "4"-lərin kağızda yazılışı İlqara çox solğun və təsirsiz göründü, belə qətiyyətsiz səliqə ilə yazılmış qiymətlərlə onu texnikuma qəbul eyməyəcəklərini də fikirləşdi, amma elədilər. Sanki geodeziya elmi elə onun məəttəliymiş!..

Qurbanova deyə bilərdi ki, çöllərdə böyüyüb, qoyun-quzu otarıb, ot biçib, saman yığıb, orada işləyən arvadların, kişilərin oxuduğu nəğmələrə qulaq asıb, olub ki çöldə gecələyib, ulduzları görüb, Arazın səsini eşidib... Hətta şeir də yazıb. Bir sözlə, deyə bilərdi ki, bütün bunlara görə çöl onun ruhuna doğmadır, çölü sevir. Demədi, fikirləşdi ki, hələ qarşıda altı aylıq təcrübə müddəti durur, qismət olsa, başqa vaxt danışar. Ümumiyyətlə, bunları Qurbanova deməyə ehtiyacmı varıydı, Qurbanov özü o çöllərdə böyüməmişdimi?!

Maşın təzə, sürücü cavan oğlandı. Dediyinə görə, gecə səhərədək belə maşını həyətdə yatırtmaq günah sayılmalı və bu günahın davamlı təkrarlanmaması üçün Qurbanov həftədə, on gündə bir imkan verməliydi ki, o, şəhərə mal vursun. Qurbanov o barədə nəinki danışmaq, heç eşitmək belə istəmədiyini göstərmək üçün çantasından xəritəni çıxarıb "Aşir"in yolunu izləməyə başladı. "Aşir" siqnal qülləsinin adıydı, Qurbanov ora bucaq ölçməyə gedirdi.

Xeyli gedəndən sonra qonşu rayon mərkəzini keçən kimi Qurbanov maşını çöl yoluna çıxardı. Söyüdlü arx boyu tez-tez əyilən çınqıllı yol, nəhayət, körpünü keçib kollektorun uca dambası üstündə birdən qurtardı. Elə bil taxtanın başını mişarla kəsib xeyli aşağı atmışdılar: orada maşın təkərlərinin saldığı qoşa cığır böyürtkən basmış dambanın ətəyindən yetim uşaq kimi sallana-sallana sanki çölün vəhşi dərinliyinə doğru zorla gedirdi. Enməzdən öncə Qurbanov başını pəncərədən çıxarıb, ilğımın arxasında kölgə kimi oynamağa başlamış uzaq qüllənin qaraltısını sevinclə göstərdi.

- Odeey, "Aşir"!

"Aşir" qülləsinin böyüklüyü onun ən yüksək kateqoriya koordinat sisteminə aid olduğunu göstərirdi: dünyada sədd-sərhəd tanımayan o sistem birbaşa Qrinviç meridianına söykənir, Yerdə qalan, tədricən kiçilə-kiçilə yer kürəsinin hər kvadratmetrini əhatə edən bütün başqa koordinat sistemləri ondan törəyir.

Amma "Aşir"ə çatmaq üçün bakılı balasının üstüçadırlı təzə "Qaz-51"i cilətu, yosun və qamış basmış axarsız kollektorlar boyunca dambaların altı-üstü ilə uzun-uzadı fırlanaraq yeganə körpünü tapmaq əndişəsində bir saat da atılıb-düşdü.

- Xəritə köhnədi, bu kollektorların hamısı sonradan necə gəldi çəkilib, - Qurbanov şoran çölün düzündə sürücünü azdırmasına haqq qazandırmağa çalışdı.

- Ala, belə maşını bu çöldə məhv eləyərlər?! - sürücü öz arzularından ayrılmadan donquldanırdı. Bəlkə də çölün düzündə sürücüyə bütün bu yerölçmələr, durbinli alətlər, yataq kisələri, "raskladuşkalar", su bidonları, yalnız real iş üzrə hesablnan konkret aylıq maaş və çöl pulu ilə birlikdə hələlik sınıb dağılmamış təzə oyuncaq kimi görünürdü, amma bunun gec, ya tez mütləq sınıb dağılacağına və heyif ki, onda maşının da köhnəlib əldən düşəcəyinə, şəhər uşağı hamıdan artıq əmin idi.

Maşının təzəliyinə baxmayaraq, çöl yolunun tozu altdan kabinəyə dolurdu. İlğım getdikcə tündləşir, susuzluq öz qəti hökmünü tozla bərabər içəri dürtürdü. Qurbanov isə elə bil bunların heç birini görmür, hiss etmir, yalnız "Aşir"ə çatmağın arzusu ilə ətrafa dörd gözlə baxırdı.

Yaxından "Aşir" qülləyə yox, şalbandan düzəldilmiş dağ maketinə oxşayırdı: çöllərdə geodezistlərin gördüyü işlərin ciddiliyindən hər kəsə xəbər verən bu möhtəşəm qüllə nə vaxtsa kimlər tərəfindənsə tikilmişdisə, hələ dururdusa və indiyədək ağac-ağac sökülüb oğurlanmamışdısa, deməli, məsələ heç də sadə deyildi. İllərin qar-yağışı, dağıdıcı günəş istisi "Aşir"i qocaltmışdı. Dəmir skoblarla bir-birinə calanmış şalbanların çat-catlağına əl girərdi. Bu əldən-ayaqdan uzaq çölün düzünə nadir göy cismi kimi düşmüş "Aşir" əyri-üyrü yulğunlarla, qaysaq bağlamış şor torpaqla, çökəklərdə sozalan ot-alaf və tikanlarla müqayisədə o qədər yad, kimsəsiz və baxımsız görünürdü ki, sanki dindirsən, min yerindən qan-yaş töküb ağlardı. Amma axıb gedən həyatında çox vacib nəyisə gözləyirmiş kimi, elə bil bütün gücünü toplayıb qamətinin düzlüyünü qoruyurdu, sanki bilirdi ki, uca başının yerdəki nöqtənin üzərindən azacıq yana əyilməsi onun sonudur. Hələ ki durmuşdu, bəlkə də bütün Muğanda ondan hündür nəsə tapmaq qeyri-mümkün idi.

Qurbanov teodolit qutusunu götürüb nərdivanla yuxarı qalxmağa başladı. Belə çıxırdı ki, İlqar da onun arxasınca sözsüz-söhbətsiz ora dırmaşmalıdı. Qurbanovun ağırlığı altında yırğalanan şalbanlar o qədər də zəif və tabanasız görünmürdü, amma nərdivan nisbətən nazik ağaclardan düzəldildiyinə görə çürümüşdü. Və canını dişinə sıxıb bu ləngərli yüksəkliyi yavaş-yavaş qalxan İlqarı yuxarıda nərdivandan da betər bir sürpriz gözləyirdi. Ora çatanda İlqar hiss elədi ki, qorxudan susuzluğu unudub, amma boğazı, içi-içalatı qupquru quruyub, üstəlik zəhrimar qüllənin ən yuxarı, sürahili çardağı da aşağıdakından qat-qat artıq ləngərlənir. Hətta sürücü də bu ləngəri hiss edib maşını dalı-dalı verərək qüllədən xeyli aralandı ki, xatadan-beladan kənar olsun. İlqar qülləni qalxınca Qurbanov bircə kəlmə də danışmadı, heç yuxarıdan aşağı baxmadı da. Yalnız yuxarıda Qurbanov ona az-çox etibarlı görünən küncü göstərib tapşırdı ki, orada otursun və tərpəşməsin.

Burada asta meh də vardı və xəritəyə diqqətlə baxmağına mane olan bu meh Qurbanovu, deyəsən, əsəbiləşdirirdi.

Qurbanov hər bucağı iki-üç də-

